# Azərbaycan milli mətbuatının 140 illiyi ilə əlaqədar Qəbələdə regional konfrans

İyul ayının 8-də Qəbələdə Azərbaycan milli mətbuatının ərsəyə gəlməsinin 140 illiyi münasibətilə regional yubiley konfransı keçirilib. Konfransda Qəbələətrafı rayonların icra hakimiyyətlərinin nümayəndələri, yerli qəzetlərin redaktorları, eləcə də Qəbələ ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Yubiley mərasiminə gəlmiş qonaqlar və rayon ictimaiyyətinin nümayəndələri ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzi meydanında ucaldılmış abidəsinin qarşısına gəlib ulu öndərin xatirəsini dərin ehtiramla yad etdilər, və abidənin önünə gül dəstələri düzdülər.






Daha sonra yubiley mərasimi Qəbələ «Sport» hotelində davam etdirildi. Məclisi giriş sözü ilə açan Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev mətbuat nümayəndələrini əlamətdar yubiley münasibətilə təbrik etdi, onlara yeni yaradıcılıq uğurları arzuladı.



Konfransda çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev əvvəlcə milli mətbuatımızın 140 illik yubileyinə həsr olunmuş növbəti regional konfransın keçirilməsi üçün böyük maarifçilərin vətəni, zəngin tarixi və füsunkar Qəbələ şəhərini seçdiklərinə görə tədbirin iştirakçılarını qəbələlilər adından salamladı, təşəkkürünü bildirdi. Sonra cənab S. Abdullayev Azərbaycan milli mətbuatının yaranma tarixindən, onun keçdiyi mərhələlərdən geniş danışdı. Qeyd etdi ki, görkəmli ictimai-siyasi xadim, böyük maarifçi, dövrünün tanınmış publisisti Həsən bəy Zərdabi tərəfindən 22 iyul 1875-ci ildə «Əkinçi» qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı ötən müddət ərzində həm çətin, həm də şərəfli inkişaf yolu keçmişdir. Daim ictimai fikir və sağlam ideyaların aynasına, xalqın tribunasına çevrilən milli mətbuatımız «Əkinçi»nin ənənələrinə, ümumbəşəri mətbu dəyərlərə sadiqliyi ilə seçilmiş, azərbaycançılıq, vətənpərvərlik dəyərlərinin daşıyıcısı olmuşdur. Çağdaş mətbuatımız ölkəmizdə demokratik cəmiyyət quruculuğunun təzahürü kimi söz və fikir azadlığı şəraitində, senzurasız fəaliyyət göstərməklə dövlətimizin hərtərəfli dəstəyi ilə əhatə olunmuşdur.

Müstəqillik dövründə də Azərbaycanda çoxsahəli mətbuat və poliqrafiya sistemi təşkil olunmuş, müasir teleradio, informasiya şəbəkələri yaradılmış, milli jurnalistikamız əsaslı surətdə inkişaf etmişdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin milli mətbuatımıza göstərdiyi xüsusi diqqət və qayğıdan danışan Səbuhi Abdullayev dedi ki, məhz ilk dəfə olaraq ulu öndərin imzaladığı sərəncama əsasən, Azərbaycan milli mətbuatının 125 illik yubileyi təntənəli şəkildə qeyd edilib. Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev də milli mətbuatımıza hər zaman xüsusi diqqət yetirir. Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla ölkəmizdə milli mətbuatımızın yubileyləri təntənəli şəkildə qeyd edilir. Bütün bunlar Azərbaycanda fəaliyyət göstərən mətbuat orqanlarına dövlət qayğısının bariz nümunəsidir. Eyni zamanda, bunlar KİV-lərin gələcək inkişafı üçün də önəmli töhfədir.



Diqqətə çatdırılıb ki, bütün ölkədə olduğu kimi Qəbələ rayonunda da mətbuata xüsusi diqqət və qayğı vardır.

Cənab S. Abdullayev son illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları çərçivəsində Qəbələ şəhərində və eyni zamanda rayonun qəsəbə və kəndlərində aparılmış geniş miqyaslı tikinti-quruculuq və abadlıq işlərindən geniş bəhs etdi. Qeyd etdi ki, beynəlxalq hava limanı, avtovağzal kompleksi, Heydər Əliyev Konqres Mərkəzi, rayon icra hakimiyyəti üçün inzibati bina, Heydər Əliyevin adını daşıyan mədəniyyət parkı, Qəbələ Mədəniyyət Mərkəzi, onlarla başqa xidmət və emal müəssisələri son 4-5 ildə tikilib istifadəyə verilmiş, bəzi ucqar kəndlərə gedən yollar əsaslı şəkildə yenidən qurulmuş, çaylar üzərində müasir standartlara cavab verən nəhəng körpülər quraşdırılmışdır. Hazırda şəhərdə «Asan» xidmətin Qəbələ filialı, məhkəmə, prokurorluq orqanları, Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon şöbəsi və kənd təsərrüfatı idarəsi üçün inşa edilən binalarda tikinti-quraşdırma işləri geniş vüsət aldığını diqqətə çatdırdı. Eyni zamanda son illər Qəbələ ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi etdiyini və burada VI dəfə Beynəlxalq musiqi festivallarının, idman yarışlarının keçirildiyini qeyd etdi. Çıxışının sonunda hörmətli başçı Səbuhi Abdullayev jurnalistləri yaxınlaşan ildönümü münasibətilə təbrik etdi, onlara ölkəmizin tərəqqisi, xalqımızın xoş günləri naminə fəaliyyətdə yaradıcılıq uğurları arzuladı.

Azərbaycan Prezidenti Administrasiyası ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Ərəstun Mehdiyev 140 il bundan əvvəl böyük maarifçi demokrat Həsən bəy Zərdabinin qarşıalınmaz səyləri ilə milli mətbuatımızın qaranquşu olan «Əkinçi» qəzetinin ərsəyə gəlməsini tarixi zərurət və vətəndaş rəşadəti nümunəsi kimi dəyərləndirdi. Natiq ayrı-ayrı tarixi dövrlərdə milli oyanışda, dövlətçiliyin bərpasında, iqtisadi-siyasi, elmi-mədəni sahələrdə xalqımızın qazandığı nailiyyətlərin əhatəli salnaməsi, mütərəqqi çağırışların tribunası oldugunu söylədi.

**(Ardı 3-cü səhifədə).**